**UOT 94 (479. 24)**

# XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLİNDƏ ŞİMALİ AZƏRBAYCANDA SAHİBKAR KƏNDİNDƏ BANK-KREDİT TƏŞKİLATLARININ XİDMƏTLƏRİNDƏN İSTİFADƏ HAQQINDA

**F.E.BAXŞƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***baxsaliebfazil@yahoo.com***

*Azərbaycan sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişaf mənbələri müxtəlif olmuşdur. XIX əsrin sonu-XX əsrin əvvəlində sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin yaranmasının mühüm göstəricilərindən biri bank-kredit təşkilatlarının xidmətlərindən istifadənin başlanması və genişlənməsi idi. İlk növbədə ipəkçilik, sonra isə pambıqçılıq, taxılçılıq, maldarlıq və digər sahələrdə müxtəlif imperiya və yerli bank təşkilatlarının iştirak dərəcəsi genişlənirdi. Fəaliyyət dairəsi az və ya çox dərəcədə mülkədar, bəy və digər xüsusi mülkiyyətçi şəxslərin təsərrüfatını əhatə edən yerli, Cənubi Qafqaz və imperiya miqyaslı bank və kredit təşkilatlarının müxtəlif təsərrüfat, istehsal və istehlak məqsədləri üçün onlara müxtəlif kredit vəsaitləri verməsi ilbəil artırdı.*

**Açar sözlər:** kapitalist, bank, kənd, Şimal

Beləliklə, XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində çox ciddi sosial – iqtisadi dəyişikliklər baş vermiş, sahibkar kəndlilərin arasında sosial və əmlak təbəqələşməsi prosesi daha da dərinləşmiş, bank və ticarət kapitalının təsiri və istehsal prosesinə nəzarəti güclənmişdi (5, 26-27). Bunlardan başqa muzdlu əməkdən istifadə hallarının genişlənməsi, qaramal və qoyunların sayının artması, kənd təsərrüfatı alətlərinin təkmilləşməsi və maşınların tətbiqi, çoxgəlirli bitkilərin əkin sahəsinin genişlənməsi, əmtəəlik və başqa kənd təsərrüfatı məhsulları istehsalının artması və burjua – kapitalist təsərrüfatı və istehsal üsulunun digər təzahürlərinin genişlənməsi sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin inkişafı və dərinləşməsini sübut edirdi (4, 65).

Ümumiyyətlə, XIX əsrin sonu-XX əsrin əvvəllərində sahibkar kəndində əmtəə istehsalı prosesində bank kredit təşkilatların rolu Kəndli Əsasnaməsinin qəbulundan sonra dəfələrlə artmışdı və bu iş yeni formalarda özünü aydın büruzə verirdi (6, 185). Proses ümumiyyətlə, sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişafı gedişində zəruri olaraq başlasa da,

lakin əsrin sonunadək o qədər də böyük vüsət almayıb, alsa da son dərəcə bəsit formalarda özünü büruzə verirdi.

Xüsusilə də XX əsrin əvvəllərində yeni təsərrüfatçılıq fəaliyyətinə keçid üçün, öz fəaliyyətlərini yeni əmtəə-kapitalist münasibətlərinin tələblərinə uyğunlaşdırmaq üçün həm sahibkar kəndlilərinə, həm də bəy, mülkədar-sahibkarlara nağd pul vəsaiti əldə edilməsi olduqca zəruri idi. 1906-cı ildə Yelizavetpol quberniyasında, 1907-ci ildə Bakı quberniyasında ilk kiçik kredit təşkilatları yarandı. Bütövlükdə Azərbaycanda 1914-cü ildə 129 xırda kredit təşkilatı fəaliyyət göstərirdi və bunların 68-i kənd təsərrüfatı sahəsinə xidmət edirdi (24, 96). Lakin Azərbaycanda kəndli təsərrüfatlarının 45-50%-i bu təşkilatların xidmətlərindən yararlana bilirdi.

XX əsrin ilk illərindən başlayaraq bank-kredit təşkilatlarına kredit almaq məqsədilə müraciət edən mülkədar və bəy təsərrüfatlarının sayı artmaqda idi. Rusiya Dövlət Bankının Azərbaycan quberniyalarında yerli filiallarının hələlik açılmadığı bir şəraitdə azərbaycanlı sahibkarlar bu bankın daha geniş maliyyə imkanları olan Tiflis bölməsinin xidmətindən istifadə edirdilər. Məsələn, 1910-cu ildə Tiflis bölməsi Yelizavetpol quberniyasından olan 126 mülkədara 764 min manat məbləğində veksel kağızları üzrə kredit ayırmışdı (11, v.30). 1912-ci ildə yenə bu bölmədən artıq 200 sahibkar kənd təsərrüfatı fəaliyyətinin müxtəlif sahələri üçün kredit almağa nail olmuşdu (12, v.42).

Yelizavetpol qəzasından olan mülkədarlar-B.Ağasıbəyov bu bölmədən 1908-ci ildə pambıqçılıq təsərrüfatının genişləndirilməsi məqsədilə 25 min manat, Adil xan Ziyadxanov 1911-ci ildə öz təsərrüfatının müxtəlif sahələrinə sərf edilməsi məqsədilə 10 min manat, 1905-ci ildə Xılxıllı kəndindən olan Həmid bəy və Mehrəli bəy Zülqədərovlar yeni eyni məqsədlə müvafiq olaraq 12 min və 10 min manat; İsrafilbəyov qardaşları 1910-cu ildə taxılçılıq və pambıqçılıq təsərrüfatlarının genişləndirilməsi və mükəmməl yeni əmək alətlərinin gətirilməsi üçün 5 min manat; Şirin bəy Şahmalıyev 1909-cu ildə müxtəlif yenidənqurma işləri, taxılbiçən və taxıldöyən qurğular almaq üçün 5 min manat; Dəllər kəndindən Süleyman bəy Şəmkirli taxılçılıq və pambıq əkini, habelə, pambıqtəmizləmə qurğuları almaq üçün 1910-cu ildə 5 min manat kredit almışdı (12, v.42-50). Göründüyü kimi, ayrılmış kreditlərin məbləği o qədər də yüksək deyildi. Çünki bu kreditlər sahibkar mülklərinin girov qoyulması əvəzində yox, sadəcə veksel-borc kağızları əsasında verilmişdi.

Dövlət bankının Tiflis bölməsinin xidmətindən yararlanan başqa bir sahibkar təsərrüfatı Forer qardaşları firması idi. Firmanın 1911-ci ildə müxtəlif bank təşkilatlarından aldığı kredit 100 min manat, 1913-cü ildə 142 min manat, 1914-cü ildə isə 100 min manat təşkil edirdi (7, v.4-6).

Başqa bir iri kənd təsərrüfat sahibkarı Qummel qardaşları firmasının yüz min manatlarla ölçülən kənd təsərrüfatı və ticarət fəaliyyəti dövriyyəsinin yüksək səmərəli fəaliyyətində bank təşkilatlarından alınmış kreditlərin rolu böyük olmuşdu. Firmanın Bakı, Tiflis, Yelizavetpol və digər şəhərlərdəki bank-kredit təşkilatlarına olan borcu 1914-cü ildə 208 min manat təşkil edirdi (8, v.4).

Belə iri firma və təsərrüfatların böyük məbləğdə istehsal-təsərrüfat məqsədli kredit almaqlarının əsas səbəbi onların alınmış kredit əvəzində mülk, zavod və digər əmlaklarını, habelə hazır kənd təsərrüfat məhsullarını, ən çox isə şərab və pambıq məhsullarını girov qoya bilmələri idi.

XX əsrin ilk iki on ilində Azərbaycan sahibkar kəndində irili-xırdalı bütün mülkədar-sahibkar təsərrüfatlarının fəaliyyətində digər bir bank təşkilatının – Azov-Don bankının Yelizavetpol şəhərindəki bölməsinin də böyük rolu olmuşdu. 1896-cı ildə fəaliyyətə başlayan Yelizavetpol bölməsi XX əsrin əvvəllərindən başlayaraq öz maliyyə fəaliyyətini nisbətən genişləndirirdi və həm Bakı, həm də Yelizavetpol quberniyasında çox az mülkədar və sahibkar təsərrüfatı tanınardı ki, onun müştərisi olmasın. Bankın 1916-cı ildə açılmış Bakı bölməsi də Azərbaycan sahibkar təsərrüfatları dairəsində uğurlu maliyyə fəaliyyəti ilə məşğul olurdu (2, v.7).

Forer qardaşları, Qummel qardaşları, Solomonov qardaşları, Xublarov qardaşları firmaları, F.Vəzirov, H.Z.Tağıyev və onlarla digər tanınmış yerli mülkədar və sahibkarlar da bu bankın iki bölməsinin müştəriləri sırasında idilər (13, v.59-63).

Azov-Don bankının yerli bölmələrinin 1900-cü illərin sonunda fəaliyyətini gücləndirən amillər içərisində bazarın hazır və təmizlənmiş pambıq məhsuluna olan tələbatının artması da mühüm rol oynadı. Belə ki, Azərbaycan sahibkar kəndində bu məhsulun həcminin ilbəil artması xarici və yerli şirkətlərin nümayəndələrinin satın alma fəaliyyətlərinə yeni təkan vermiş oldu. Belə bir rəqabət şəraitində yerli mülkədar bəylər bankın yerli bölmələrindən alınmış kreditləri bir tərəfdən öz təsərrüfatlarının və xüsusilə də pambıqçılıq təsərrüfatlarının işini yenidən qurmağa, digər tərəfdən həm öz həmkəndlilərindən, həm də xəzinə kəndlərindən hazır məhsul alınmasına sərf edirdilər.

1911-ci ildən etibarən Bankın Yelizavetpol bölməsi pambıqçılıq sahələri sahibkarlarına həvəslə kredit ayırmağa başladı. azərbaycanlı bəy və mülkədarları, habelə digər mülkiyyətçi şəxsləri bankın xidmətindən yararlanmağa sövq edən səbəblər arasında onun nisbətən əlverişli faiz şərtləri ilə (8-10 %-lə) kredit ayırması idi. Bölmə nəinki bəy və mülkədarların pambıqçılıq, həmçinin taxılçılıq, üzümçülük, ipəkçilik və digər sahələrindəki fəaliyyətinə kifayət qədər maliyyə dəstəyi verirdi.

1915-ci il Bank bölməsindən Azərbaycan mülkədar və bəylərinin rekord sayda qrupunun kredit alması ilə xüsusi olaraq yadda qaldı. Yerli mülkədarlar Böyük bəy Ağasıbəyov 32 min manat, Adil bəy Zülqədərov 5000 manat, Allahyar bəy Zülqədərov 14100 manat, Mehrəli bəy Zülqədərov 5000 manat, İbrahim bəy Sultanov 7000 manat, Süleyman bəy Sultanov 4000 manat, Musabəy Şıxzamanov 5000 manat, bütövlükdə 200-dən çox mülkədar və bəy bank bölməsindən kredit almışdılar (1, v.8).

Bütövlükdə bank bölməsinin cəmi 20 illik fəaliyyəti dövründə kənd təsərrüfatı və sənaye sahəsində sahibkar şəxslərə 25 milyon manat kredit veril-

mişdi və bunun yarıdan çoxu kənd təsərrüfatı sahibkarlarının payına düşürdü (1, v.8-9).

Azərbaycan sahibkar kəndində mülkədar və bəy təsərrüfatlarının fəaliyyətində mühüm dönüş yaratmış və yardımçı olmuş bank təşkilatlarından biri də 1908-ci ildən Yelizavetpol quberniyasını öz fəaliyyət dairəsinə daxil etmiş Volqa-Kama səhmdar kommersiya bankının Tiflis bölməsi idi. Bölmənin 1912-ci ildə Yelizavetpol şəhərində açdığı Agentlik elə həmin ildə 148 sahibkara 626 min manat kredit ayırmışdı. Agentliyin 1916-cı ildə 280 sahibkara verdiyi 339 min manat kreditdən 20-si və ya 116 min manatı üzümçülük və şərabçılıq, pambıqçılıq və digər sahələrə 61 kredit və ya 400 min manat ayrılmışdı (14, v.8).

Agentliyin fəaliyyət göstərdiyi bütün illərdə azərbaycanlı mülkədarların böyük bir qrupu onun xidmətindən istifadə etmişdilər. Alınmış kreditlərin təyinatı nəzərdən keçirildikdə diqqət çəkən ilk cəhət kreditin böyük bir hissəsinin pambıqçılıq təsərrüfatının təşkilinə və genişlənməsinə yönəlməsi idi. Xındırıstanlı Nəsir bəy, Paşa bəy və Adil bəy Şuşa qəzasının ayrı-ayrı kəndlərində böyük torpaq mülkləri olan İbrahim bəy Hüseynov, Tərtər kəndindən Bədir bəy Həsənbəyov və yüzlərlə digərləri XX əsrin müxtəlif illərində Agentlikdən alınmış kreditləri təkcə pambıqçılıq yox, həmçinin, üzümçülük, taxılçılıq, ipəkçilik və s. təsərrüfat sahələrinin idarə edilməsinə və genişlənməsinə sərf etmişdilər. Bu mülkədarların çoxunun müxtəlif qəzalarda onlarla malikanələri, min desyatinlərlə əkin sahələri vardı (15, v.39).

Agentliyin sahibkar təsərrüfatlarını ayırdığı kreditlərin dəqiq illik məbləğlərini hesablamaq mümkün olmasa da, bəzi illərdə, bəzi sahələrə ayrılmış kreditləri hesablamaq mümkün olmuşdur. Məsələn, 1915-ci ildə mülkədar və digər kənd sahibkarlarına pambıqçılığın genişləndirilməsi, o cümlədən pambıqtəmizləmə zavodlarının tikilməsi üçün 51 kredit və ya 442500 manat ayrılmışdı (16, v.40).

Bunlardan başqa Azərbaycan sahibkar kəndində mülkədar, bəy və digər sahibkarların, hətta sahibkar kəndlilərin təsərrüfat fəaliyyətinə yardım məqsədilə kredit ayıran onlarla bank-kredit təşkilatları fəaliyyətdə idi. Bunların arasında Tiflis Kommersiya Bankı, Dövlət Bankının Gəncə bölməsi (1916-cı il), Sankt-Peterburq kommersiya bankının Bakı bölməsi (1910-cu il), Rusiya ticarət sənaye bankının Bakı bölməsi və onlarla digərləri var idi (16, v.41-48). Bu təşkilatların çoxu, Şuşa, Nuxa, Culfa və digər şəhərlərdə öz yerli filiallarını da təşkil etmişdilər.

Təkcə bunu demək kifayət edir ki, Bakıdakı müxtəlif səhmdar-kommersiya bankları 1909-1912-ci illərdə pambıqçılıq təsərrüfatının təşkili üçün 7,5 milyon manat kredit ayırmışdı (25, 1-29).

XX əsrin əvvəllərində mülkədar-bəy və sahibkarlara kənd təsərrüfatı istehsalının müxtəlif sahələrində fəaliyyəti üçün maliyyə yardımı göstərilməsində Qarşılıqlı Kredit Cəmiyyətlərinin də müəyyən rolu olmuşdu. Cəmiyyətə adətən müəyyən maliyyə vəsaiti ilə sahibkarlar özləri daxil olur və cəmiyyət

yalnız öz üzvlərinə kredit verirdi. 1904-cü ildə Yelizavetpol şəhərində fəaliyyətə başlayan cəmiyyət əsasən orta təbəqəli sahibkarların – üzümçülük, şərabçılıq, pambıqçılıq və digər təsərrüfat sahiblərinə maliyyə yardımı göstərirdi və ilk illərdə üzvləri elə çox deyildi (9, v.5). Sonrakı illərdə fəaliyyətini genişləndirən Cəmiyyət 1905-1914-cü illərdə təkcə üzümçülük və şərabçılıq, pambıqçılıq və ipəkçilik təsərrüfatları sahiblərinə 5 milyon manata yaxın kredit ayırmışdı (10, v.6). Sonrakı illərdə belə Cəmiyyət Şuşa və Nuxa şəhərlərində də fəaliyyət göstərmişdi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində mülkədar, bəy və digər kənd təsərrüfatı sahibkarlarının istehsal və təsərrüfat xarakterli kredit almalarının mühüm mənbələrindən biri də torpaq sahələrinin, malikanə və digər mülklərin girov qoyulması əvəzində müəyyən məbləğ kredit və ya ipoteka borcu alınması idi. Doğrudur, ilk vaxtlar bu xidmətdən ən çox qeyri-müsəlman sahibkarlar daha çox istifadə edirdilər və alınan məbləğ sonrakı illərlə müqayisədə o qədər də böyük olmurdu. Lakin sonrakı illərdə, xüsusilə də XX əsrin əvvəllərində vəziyyət dəyişir. azərbaycanlı mülkədar və bəylərin bu məqsədlə xidmətindən istifadə etdiyi ilk bank Tiflisdəki Zadəgan Torpaq Bankı idi. Bankın kredit ayırması üçün qoyulan şərtlərdən biri alınan pulun təsərrüfatların yeni qaydada idarə edilməsinə və genişləndirilməsinə, habelə təkmil iş qurğularının və maşınların alınmasına sərf edilməsi idi.

1899-cu ildə Yelizavetpol qəzasından olan Muradov qardaşları birlikdə sahəsi 85 desyatin olan 2 malikanəni girov qoyaraq bankdan 7 min manat ipoteka borcu almışdılar (3, v.1-2). Bank müxtəlif illərdə Azərbaycanda müxtəlif millətlərdən olan torpaq sahiblərinə verdiyi kredit məbləğini artırırdı. Bu sahədə ən rekord il 1915-ci il sayılır. Həmin ildə bank 2 quberniya üzrə mülkədar və digər sahibkarlara torpaq mülklərinin girov qoyulması əvəzində 4,5 milyon manat kredit ayırmışdı (17, v.13).

Bank tərəfindən 1907-ci ildə iki quberniya üzrə 71 malikanə və 94207 desyatin torpaq girov qoyulub 1621 min manat kredit verilmişdisə, 7 ildən sonra bu rəqəmlər müvafiq olaraq 104-ə, 138111 desyatinə və 3649 manata çatmışdı (17, v.13).

Azərbaycan sahibkar mülkədar təsərrüfatlarının fəaliyyəti üçün ipoteka krediti ayırmalarına görə 2-ci yerdə Rusiya Zadəgan Torpaq Bankının Cənub-Qafqaz şöbəsi idi. 1890-cı ildə Tiflis şəhərində fəaliyyətə başlayan şöbə 66 il müddətinə torpaq və malikanəyə qoyulmuş qiymətin 66% ilə çoxsaylı ipoteka krediti ayırmışdı (17, v.14).

Əslində bankın Cənubi Qafqaz şöbəsinin xidmətindən istifadə etməyi arzu edənlərin hamısı məqsədlərinə nail olmaq üçün çoxlu çətinlikləri aradan qaldırmalı olurdular. Azərbaycanlı bəy və mülkədarların Rusiyada olduğu kimi zadəgan mənşələrini təsdiq edən rəsmi sənədləri olmaması və ya rəsmi sənədlərə əsasən «ali müsəlman silkinin nümayəndələri adlandırılması» onların bu bankdan iri məbləğdə kredit almasını çətinləşdirirdi. Lakin sonradan, müəyyən qədər də Qafqaz canişini qraf Vorontsov-Daşkov 1913-cü ildə bank

rəhbərliyinə rəsmən müraciət etdikdən sonra vəziyyət dəyişdi. Lakin bankın kreditorları arasında Şuşa qəzasından Fərrux bəy Vəzirov, Yelizavetpol qəzasından Zülqədərov qardaşları və s. nüfuzlu,varlı mülkədar və bəylər olsalar da, ən çoxu qeyri-millətlərin nümayəndələri olan sahibkarlar idi.

Daha sonra 1907-ci ildə iki quberniya üzrə olan məlumata görə Cənubi Qafqaz şöbəsində 8 malikanə, 12974 desyatin xüsusi mülk torpaq sahəsi girov qoyulmuş və 385 min manat kredit alınmışdısa, 1915-ci ildə bu rəqəmlər müvafiq olaraq 11 malikanə, 12402 desyatin və 618 min manata yüksəlmişdi (18, v.11).

1870-ci il 14 may Kəndli əsasnaməsinin ali müsəlman silkindən olan bəy və mülkədarların torpaqlarında yaşayan kəndlilərin öz sahibkarlarına vıkup ödəyərək pay torpaqlarını satın almaları imkanı nəzərdə tutulmuşdusa, kəndlilərin Rusiyada olduğu kimi Kəndli Bankından yardım ala bilməməsi onilliklərlə bu məsələnin həllini ləngitmişdi. Yalnız 1905-ci ildə I rus inqilabının başlanmasından sonra milli ucqarlarda, o cümlədən Azərbaycan quberniyalarında «sakitliyin» qalmasında maraqlı olan yenicə bərpa olunmuş Qafqaz Canişini postuna təyin edilmiş qraf Vorontsov-Daşkovun Cənubi Qafqazda kəndli məsələsinin birdəfəlik həllinə yönəlmiş fəaliyyəti gedişində görülmüş işlərdən biri də 1906-cı il 15 fevralda Tiflisdə Kəndli torpaq bankının Cənubi Qafqaz şöbəsinin açılması oldu (19, v.22). Bank eyni vaxtda sahibkar kəndlilərə vıkup əməliyyatları üçün, qarşılıqlı razılığa əsasən, bankın satın aldığı və sonradan xırda hissələrlə satışa çıxardığı torpaqları satın almaq və s. işlər üçün kreditlər verirdi.

1906-1915-ci illər arasında Kəndli Torpaq bankının Cənubi Qafqaz şöbəsi iki quberniyada şöbə tərəfindən satışa çıxarılan 9002 desyatin torpaq sahəsini satın almaq üçün sahibkar kəndlilərinə və digər şəxslərə 553400 manat məbləğində kredit ayırmışdı (20, v.27).

Bölmənin həyata keçirdiyi başqa bir xidmət növü olan əvvəllər girov qoyulmuş və sonra şöbə mülkiyyətinə keçmiş torpaq mülklərinin satın alınması üçün sahibkar kəndlilərə kredit verilməsi idi. Belə ki, bəhs olunan dövrdə Bakı və Yelizavetpol quberniyaları üzrə 69 belə torpaq mülkü satışa çıxarılmış və 302 kəndli-sahibkarlar tərəfindən satın alınmasına 392330 manat pul verilmişdi (20, v.28).

Bölmənin kreditləşdirilməsini həyata keçirdiyi digər xidmət sahəsi də bəzi məqamlara aydınlıq gətirir. Belə ki, qeyd olunan illərdə bankın vasitəçiliyilə xüsusi sahibkarlardan və mülkədarlardan torpaq sahəsini satın alınması üçün 212403 manat kredit verilməsi yolu ilə cəmi 10 malikanı torpaqlarının bölüşdürülməsi zamanı 324 kəndli-sahibkar 5477 desyatin torpaq sahəsinə sahib olmuşdu (21, v.46-47).

Ümumiyyətlə, fəaliyyətinin ilk 10 ilində Cənubi Qafqaz bölməsi 20 min desyatin torpaq mülklərinin satın alınmasını kreditləşdirmiş, varlı kəndli təsərrüfatlarına girovqoyma əvəzində 604733 manat ipoteka krediti vermişdi (22, v.66).

Beləliklə, Azərbaycan sahibkar kəndində müxtəlif təsərrüfat, istehsal və istehlak məqsədləri üçün sahibkar təsərrüfatlara fəaliyyət dairəsi az və ya çox dərəcədə mülkədar, bəy və digər xüsusi mülkiyyətçi şəxslərin təsərrüfatını əhatə edən yerli, Cənubi Qafqaz və imperiya miqyaslı bank və kredit təşkilatlarının verdiyi müxtəlif kredit vəsaitlərini ümumiləşdirməyə çalışsaq, bank təşkilatlarında girov qoyulmuş torpaq sahələrinin sahəsi və alınmış kreditin həcmi baxımından bir qədər dəqiq olmaya da bilən, aşağıdakı mənzərənin şahidi oluruq (23, v.10).

| **İllər** | Xüsusi mülkiyyət təşkil edən torpaq sahələrinin həcmi (desyatinlə) | Girov qoyulmuş malikanələrin sayı | Girov qoyulmuş malikanələrdəki torpaq sahəsi (desyatinlə) | Girov qoyulmuş torpaqlara təyin edilmiş qiymət (manatla) | Verilmiş kreditin məbləği (manatla) | 1 desyatinə qoyulmuş qiymət və verilmiş məbləğ manatla) |
|---|---|---|---|---|---|---|
| 1907 | 757000 | 80 | 112100 | 4148800 | 2118066 | 43/16,5 |
| 1913 | 757130 | 123 | 158968 | 8359059 | 4417589 | 59/27 |

Cədvəldən də göründüyü kimi, 1914-cü ilin əvvəllərinə qədər 10-dan çox bank və kredit təxminən 5 milyon kredit vəsaitini mülkədar, bəy sahibkar şəxslərə, habelə sahibkar kəndlilərinə vermişdilər.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində müxtəlif sahibkar şəxslərə uzunmüddətli və nisbətən də güzəştli bank faizləri ilə kreditlərin ayrılması, əslində onlara təsərrüfat fəaliyyətini yenidən qurmağa, istehsal fəaliyyətini genişləndirməyə, bəzən çətin, həm də yeni təsərrüfatçılıq formalarının çətinlikləriIə ayaqlaşmaq və tam müflisləşməkdən yaxa qurtarmaq və digər məqsədlər üçün verilsə də, əksər hallarda buna nail olmaq müşkül olurdu. Bir çox sahibkar kəndli və mülkədar təsərrüfatları çox dərəcədə bu kreditlərin vasitəsilə öz işlərini səmərəli formada yenidən qurur, kənd təsərrüfatı istehsalının intensivliyini və gördüyü işlərin gəlirliyini artırmağa nail olurdular. Bu isə o demək idi ki, alınmış kredit kənd təsərrüfatı istehsalının gedişinə, məzmunu və nəticələrinə həlledici təsir göstərir və son nəticədə təsərrüfatı kapitalist təsərrüfatına çevirirdi. Baş vermiş yeniliklər, əldə edilmiş nəticələr isə sübut edirdi ki, XX əsrin əvvəllərində mülkədar-sahibkar torpaqlarındakı təsərrüfatların işinin kapitalist münasibətlərinin tələblərinə uyğunlaşaraq yenidən qurulması əslində onların, yəni mülkədar və bəy təsəsrrüfatlarının get-gedə daha kapitalist sahibkarlara çevrilməsi yolu ilə irəliləyir, bu münasibətlərlə, yeni şəraitlə, onun tələblərilə uyğunlaşmayanlar isə müflisləşərək, öz malikanə, torpaq və digər mülklərindən məhrum olurdular.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (АРДТА). f.384, siy.1, iş 19
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (АРДТА). f.384, siy.1, iş 23
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (АРДТА). f.187, siy.1, iş 411
4. BDU-nun Xəbərləri. Humanitar elmlər seriyası. 2011. №3
5. *Vəliyev T.T..XX əsr Azərbaycan tarixi. II cild. Bakı: Təhsil, 2009, 560 s.*
6. Гасанов Г.Н. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку: Тахсил, 2007. 224 с.
7. *Gürcüstan Dövlət Tarix Arxivi. f.3*90. *siy.*1. *iş 2*8
8. *Gürcüstan Dövlət Tarix Arxivi. f.3*90. *siy.*2. *iş 2*26
9. *Gürcüstan Dövlət Tarix Arxivi. f.3. siy.*1. *iş 227*
10. *Gürcüstan Dövlət Tarix Arxivi. f.3. siy.*1. *iş 2*31
11. Государственный исторический архив России в Санкт-Петербурге (ГИА РФ). ф.587, оп.56, д.1159
12. ГИА РФ. ф.587, о4п.33, д.953
13. ГИА РФ. ф.616, оп.26, д.319
14. ГИА РФ. ф.595, оп.3, д.1161
15. ГИА РФ. ф.595, оп.2, д.329
16. ГИА РФ. ф.595, оп.6, д.185
17. ГИА РФ. ф.1276, оп.20, д.85
18. ГИА РФ. ф.582, оп.4, д.1391
19. ГИА РФ. ф.582, оп.1, д.675
20. ГИА РФ. ГИА РФ. ф.582, оп.1, д.595
21. ГИА РФ. ф.582, оп.1, д.573
22. ГИА РФ. ф.582, оп.2, д.200
23. ГИА РФ. ф.582, оп.2, д.3085
24. Ежегодник России на 1914 г., раздель XII. Петербург 1914.
25. Труды сьезда хлебководов в городе Тифлисе сельских хозяев 1-6 ноября 1912 года. т.2., ч.2. Тип. Губернского статистического управления., Тифлис, 1914 г., 335 с.


## ОБ ИСПОЛЬЗОВАНИИ УСЛУГ БАНКО-КРЕДИТНЫХ ОРГАНИЗАЦИЙ ВО ВЛАДЕЛЬЧЕСКОЙ ДЕРЕВНЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XIX–НАЧАЛЕ XX ВЕКОВ


**Ф.Э.БАХШАЛИЕВ**


### РЕЗЮМЕ


Источники образования развития товарного производства во владельческой деревне Северного Азербайджана в рассматриваемый период были разнообразными. В конце XIX –начале XX веков одной из многих показателей развития товарно-капиталистических отношений было начало использования услуг банко-кредитных организаций и их расширение. Участие общеимперских и Закавказских банко-кредитных организаций усилилось, в первую очередь, в щельководстве, хлопководстве, зерноводстве, скотоводстве, а потом в др. областях сельскохозяйственного производства. Банко-кредитные организации выделили солидные суммы помещикам и др. собственникам во владельческой деревне Северного Азербайджана для различных хозяйственных нужд. Наблюдался ежегодный прирост полученных кредитов.



**Ключевые слова:** капиталист, банк, деревня, Север

# ON THE USE OF BANKING SERVICES AND CREDIT ORGANIZATIONS IN THE VILLAGE OF POSSESSORY NORTHERN AZERBAIJAN LATE IN XIX-EARLY IN XX CENTURIES

*F.E.BAKHSHALİYEV*

**SUMMARY**

Sources of the development of commodity production in the northern village of possessory Azerbaijan in the researched period varied. Late in XIX-early in XX centuries, one of many indicators of the development of capitalist relations was the beginning of the use of banking services, credit institutions and their expansion. Participation of general imperial and Caucasian bank-credit institutions increased primarily in silk industry, cotton industry, grain and cattle productions. Bank-credit organizations allocated large sums for landlords and other owners of possessory village of North Azerbaijan for various household needs. Annual growth of credits was registered.

**Key words:** capitalist, bank, village, Northern